HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

31 oktyabr 2016-cı il
№020 (34)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / “იენი იოლი” საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur

## 29 OKTYABR TÜRKİYƏ RESPUBLIKASININ CÜMHURİYYƏT BAYRAMIDIR




Cümhuriyyət bayramı 1924-cü ildən etibarən hər il 29 oktyabr tarixində Türkiyədə qeyd olunan dövlət bayramıdır.

1922-ci ildə səltənətin qaldırılmasından sonra Türkiyə dövlətinin siyasi quruluşunun yekun təsbiti məsələsi 1923-cü ilin oktyabrında cumhuriyyətin elanı ilə həll edildi. 6 əsr ərzində türk-islam sultanlığı şəklində mövcud olan Türkiyə dövləti Türkiyə Böyük Millət Məclisinin 29 oktyabr tarixli qərarı ilə həyatına respublika kimi davam etmişdir.

Cumhuriyyətin elanından sonra ilk Prezident seçilən Mustafa Kamal Paşa Türkiyənin Dövlət-i Aliyədən yeni siyasi rejimə keçidini şərtləndirən geniş miqyaslı islahatların banisidir. 1924-cü ildən etibarən keçirilməyə başlayan bayram Türkiyənin bütün şəhərlərində, Şimali Kipr Türk Respublikasında və dünyanın bütün ölkələrindəki Türkiyə səfirliklərində qeyd edilir. Bu bayram münasibətilə Türkiyənin ölkəmizdəki səfirliyi hər il olduğu kimi, bu il də təntənəli bayram mərasimi keçirib.

TBMM-nin 29 oktyabr 1923-cü ildə qəbul etdiyi qərarla dünyaya yeni bir dövlətin – Türkiyə Cümhuriyyətinin qurulduğu elan edildi, Qazi Mustafa Kamal Paşa Atatürk Cümhurbaşkanı seçildi. Atatürk qurucusu olduğu Cümhuriyyətin onuncu il şənliklərindəki məşhur nitqində bu günü türk xalqının ən əziz, ən böyük milli bayramı olaraq dəyərləndirmişdi. Müasir Türkiyə Atatürk öndərliyində türk xalqının qəhrəmanlığının şah əsəridir.

## TÜRKİYƏ SƏFİRİ: BATUMİ DEDİKDƏ GÜRCÜSTAN, RİZƏ DEDİKDƏ TÜRKİYƏ BAŞA DÜŞÜLÜR

Türkiyənin Gürcüstandakı səfiri Zeki Levent Gümrükçünün bəyan etdiyinə görə, son 25 il ərzində türk-gürcü münasibətləri bütün səviyyələrdə və bütün istiqamətlərdə ən yaxşı mövqedədir. Səfir bu barədə KİV-də Türkiyə prezidenti Rəcəb Tayib Ərdoğanın bəyanatı ilə bağlı yayılmış məlumatı şərh edərkən bəyan edib.

Səfirin sözlərinə görə, Türkiyə yalnız Gürcüstanın ərazi bütövlüyünü və suverenliyini tanımaqla kifayətlənmir, həm də onu güclü şəkildə müdafiə edir.

Türkiyə səfiri deyib: “Minnətdaram ki, hər hansı bir anlaşılmazlığın çözülməsi üçün mənə imkan yaradırsınız. Prezidentin bu çıxışı əsrlər boyu yan-yana yaşayan region xalqlarının çox sıx münasibətlərini əks etdirir. Bu, həmçinin sosial-mədəni bənzərliyin nəzərə çarpdırılmasıdır.

Bu gün bizim hökumətlərimiz çox düzgün siyasət yürüdürlər. Son 25 il ərzində türk-gürcü münasibətləri bütün səviyyələrdə və bütün istiqamətlərdə ən yaxşı mövqedədir. Biz yalnız Gürcüstanın ərazi bütövlüyünü



və suverenliyini tanımaqla kifayətlənmirik, həm də onu güclü şəkildə müdafiə edirik.

Gürcüstanın qonşuları arasında Türkiyə yeganə ölkədir ki, sərhədlərlə bağlı problemləri yoxdur.

Batumi dedikdə Gürcüstan, Rizə dedikdə Türkiyə başa düşülür və gələcəkdə də belə olacaq. Bizim Gürcüstan hökuməti ilə sıx əlaqələrimiz var və bu istiqamətdə heç bir problemlərimiz yoxdur”.

## QARDABANƏDƏ KOMBİNASİYA DÖVRİYYƏLİ İKİNCİ İES-İN TİKİNTİSİNƏ START VERİLDİ

230 Mvt gücündə Qardabani kombinasiya dövriyyəli İES-in tikintisinə start verilib. Yeni stansiyanın 2020-ci ildə istismara verilməsi nəzərdə tutulur.

Gürcüstanın Baş Naziri Georgi Kvirikaşvili “Qardabani istilik elektrik stansiyası 2”nin tikintisini Gürcüstanın energetika təhlükəsizliyi yolunda daha bir mühüm addım adlandırıb.

Baş Nazir bu barədə yeni İES-in tikintisinin başlanma mərasimində bəyan edib.

“Mən xoşbəxtəm ki, nəhəng Çin şirkəti China Tianchen Engineering Corporation bu layihənin gerçəkləşdirilməsində iştirak edir. Bu, gürcü-Çin qarşılıqlı iqtisadi və investisiya əlaqələrinin genişləndirilməsi haqqında söhbətdir və son dövrlərdə bağlanmış çox mühüm razılaşmaların birbaşa nəticəsidir. İstilik elek-



trik stansiyası 2020-ci ilədək inşa olunacaq. Bu bizim elektrik sistemimiz üçün daha bir mənbədir və ölkəmizin enerji təhlükəsizliyinin təmin olunması yolunda daha bir addımdır” – Baş Nazir vurğulayıb.

## MARQVELAŞVİLİ: GÜRCÜSTAN VƏ AZƏRBAYCAN STRATEJİ TƏRƏFDAŞLARDIR



Tbilisidə səfərdə olan Azərbaycanın İqtisadiyyat naziri Şahin Mustafayevin Gürcüstan Prezidenti Georgi Marqvelaşvili ilə görüşü olub.

Report-un Gürcüstan bürosundan verilən məlumatda bildirilir ki, Georgi Marqvelaşvili iki ölkə arasında yaxşı əlaqələrin mövcudluğunu bəyan edib: “Azərbaycan və Gürcüstan strateji tərəfdaşlardır. İnanıram ki, bu cür səfərlər strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsinə və bütün sahələrdə əlaqələrin inkişafına xidmət edəcək”.

Gürcüstan Prezidenti ölkəsinin Azərbaycanla əməkdaşlığa mühüm əhəmiyyət verdiyini vurğulayıb.

Azərbaycanın İqtisadiyyat Nazirliyinin başçısı Ş. Mustafayev Gürcüstanın dövlət başçısına Azərbaycan Prezidenti İlham Əliyevin və Baş Nazir Artur Rəsizadənin salamlarını çatdırıb.

Ş. Mustafayev Gürcüstanda keçirilmiş parlament seçkiləri münasibətilə təbriklərini çatdıraraq, seçkilərin xalqın rifahının yaxşılaşmasına və ölkədə demokratiyanın inkişafına xidmət edəcəyini bəyan edib.

Görüşdə siyasi, iqtisadi, müdafiə sahələrində fikir mübadiləsi aparılıb.

Görüşdə Azərbaycanın Gürcüstandakı səfiri Azər Hüseyn və digər rəsmi şəxslər də iştirak ediblər.

## BP-NİN REGİONAL PREZİDENTİ VƏ GÜRCÜSTANIN BAŞ NAZİRİ «ŞAHDƏNİZ-2» LAYİHƏSİNİ MÜZAKİRƏ EDİBLƏR



Oktyabrın 24-də Gürcüstanın Baş Naziri Georgi Kvirikaşvili BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qordon Birellə görüşüb.

Baş Nazirin dəftərxanasından məlumat verilib ki, görüşdə əsasən BP-nin regionda və Gürcüstanda həyata keçirdiyi layihələrə aid fikir mübadiləsi aparılıb.

Tərəflər Cənub Qaz Dəhlizinin mühüm komponentlərindən biri hesab edilən “Şahdəniz-2” layihəsinin Gürcüstanda reallaşdırılan genişləndirilmə işlərini müzakirə ediblər. İstismarı 2019-cu ilə nəzərdə tutulan bu layihənin Cənubi Qafqaz ölkələri üçün əhəmiyyəti qeyd olunub.

Qaz xəttinin Gürcüstan ərazisindən keçən hissəsinin maliyyələşməsinə BP şirkətinin 2 milyard dollar sərmayə qoyacağı bildirilib.

## IKCO ŞİRKƏTİ AZƏRBAYCANDA İSTEHSAL OLUNAN AVTOMOBİLLƏRİ GÜRCÜSTANA İXRAC ETMƏK NİYYƏTİNDƏDİR

İran Khodro şirkəti (IKCO) Azərbaycanda istehsal olunan minik avtomobillərini Ukraynaya və Gürcüstana ixrac etməyi düşünür.

“IKCO Azərbaycandakı zavodda istehsal olunacaq avtomobillərin Gürcüstana və Ukraynaya göndərilməsi haqqında danışıqlar aparır” – şirkətin MDB üzrə direktoru Sabinapa Nobari məlumat verib.

Azərbaycanın Azevrocar şirkəti və Iran Khodro birgə avtomobil istehsalına başlamaq barədə razılığa gəliblər. Zavodun tikintisinin ilkin investisiya qiyməti 15 milyon dollardır. Zavod Neftçala sənaye sahəsinin ərazisində inşa olunacaq.

Zavodun 2018-ci ildə işə düşəcəyi gözlənilir. Zavoda qoyulacaq sərmayənin 25%-ini İran şirkəti, 75%-ini Azərbaycan tərəfi qoyacaq.

Zavodda hər il 10 min avtomobil istehsal olunması nəzərdə tutulur.



# "VƏTƏNPƏRVƏR"İN VƏTƏN SEVGİSİNİN GERÇƏK ÜZÜ

Afiq MUXTAROĞLU
amuxtaroglu@mail.ru

**Artıq seçkiləri başa vurduq, yola verdik demək olar. Mənim ölkə parlamentinə seçilənlərlə, seçilməyənlərlə, hələ üstəlik onların siyasi mənsubiyyətləri ilə heç bir işimin olmadığını söyləmək istəyim, düşünürəm ki, doğru səslənməyəcək. Nədən ki, seçki nə qədər önəmli siyasi bir hadisə olsa da, onun doğurduğu ictimai rezonansın hələ yaddaşlarda xeyli vaxt yaşayacağını da gözardı etmək olmaz. Bir onu demək istəyirəm ki, ölkəmizin ali qanunvericilik orqanında təmsil olunan əksəriyyətin də, azlıqların da cəmiyyətimizə məxsusluğu danılmazdır, yəni parlament əksəriyyətini də, azlığını da bizim cəmiyyət yetişdirib. Yüksək məqamlardan da səsləndirildiyi kimi onların bir-birinə gəc baxması, bir-birindən düşmən obrazı yaratması yolverilməzdir. O üzdən ki, ölkəmiz müxtəlif dönəmlərdə o qədər qarşıdurmalar görüb ki, saymaqla bitməz. Və bu toqquşmaların ziyanını da Vətən çəkib, yəni olan Vətənə olub.**

Mən seçki məsələsinə nöqtəmi qoyub, başqa dərdimizdən, azarımızdan yaza bilərdim. Təəssüf ki, bu istəyim alınmır və mən seçkilərlə bağlı fikirlərimi davam etdirməyə məcburam. İndi sual doğur ki, bu seçkilərdə qaranlıq, anlaşılmayacaq nə qalıb, təkrar seçkilərdən danışmağa nə hacət? Ancaq diqqət yetirdikdə görürsən ki, seçkilərdən elə indi danışmaq gərəkdir. Artıq qeyd etdiyim kimi, mənim seçki məntəqəsində, pərdə arxasında, sandıq başında və hətta sandığın içindəkilərlə işim yoxdur. Mənim qabartmaq istədiyim məsələ seçkiyə qədər, belə demək mümkünsə, seçki məntəqəsinin qapısınacan olanlardır. Ötənlərdə seçki ərəfəsində beş-üç laridən ötrü az qala insan simasını itirənlərdən az-çox bəhs etməmiz, yəqin ki, unudulmayıb. Və mən burada yenə də simasını itirmişlərdən danışmağı nə sizə, nə də özümə rəva bilmirəm. Üstəgəl, onlardan bir də danışmamız onlar üçün şərəf olardı.

Seçkilərdən xeyli öncə ölkəmizin siyasi həyatında David Tarxan-Mouravi və İrma İnaşvilinin başçılıq etdikləri qüvvələrin siyasi arenada görünməsi ilə bəzi qaranlıq mətləblər də üzə çıxdı. Bu siyasi qüvvələrilə bağlı ötən saylarımızda ötəri də olsa danışmışdıq. Onların səsləndirdikləri iddiaların Gürcüstana heç bir xeyir gətirməyəcəyini demişdik. Onların Gürcüstanın strateji tərəfdaşları olan Türkiyə və Azərbaycan əleyhinə ortaya atdıqları fikirlər həm ölkə daxilində, həm də onun sərhədlərindən kənarda birmənalı qarşılanmasa da, parlament seçkilərindən sonra da onlar bu iddialarından əl çəkmədilər və daha uzağa getdilər. Ölkə parlamentində 6 deputat yeri alan "Vətənpərvərlər alyansı" bunun yetərli olmadığını, ən azı bu partiyaya 8 mandat verilməli olduğunu dilə gətirdi. Burada qeyri-adi heç nə olmadığını mən də bilirəm. Siyasi mübarizənin gedişində müxtəlif yöntəmlərdən istifadə etmənin məqbul olmasını da anlayıram. Ancaq bunu ölkənin milli maraqlarına əks gedərək həyata keçirmək artıq məkrdən, məhdud ambisiyadan xəbər verir. Deyib, sonra dediklərindən imtina etmək isə riyakarlıqdan özgə bir şey deyil. Necə ki, "Vətənpərvərlər alyansı" həm seçkilərdən öncə, həm də seçkilərdən sonrakı dönəmlərdə belə edirlər. Biz belə deməmişik, belə demək istəmirdik kimi laflarla ağıl kəsdirmək istəyi onların iç üzünü açmaq üçün kifayətdir. Vətəndaşlarımız rəngləri seçə bilməyən daltoniklər deyillər, Tarxan-Mouravinin də, İnaşvilinin də kim(lər)in dəyirmanına su tökdüklərini çox yaxşı anlayırlar.

Gürcüstanın Azərbaycandakı səfirliyinin onlarla bağlı çox düzgün bəyanatına isterika içərisində cavab vermələri də "Vətənpərvərlər"in kimliyini açmaq baxımından maraq doğurur. "Mən Gürcüstanın Azərbaycandakı səfirliyinin ölkə üçün mühüm məsələlərə, Gürcüstan və Azərbaycan sərhədində, David Qarecidə gürcü torpaqları ilə bağlı ehtiraslar qızışmasına dair bəyanatını xatırlamıram, biz orada idik və mən nədənsə Gürcüstanın Azərbaycandakı səfirliyinin bəyanatını xatırlamıram" – bu, İrma İnaşvilinin qafasının məhsuludur. Bu yanusvari bəyanatla İrma xanım qaş düzəltmək yerinə göz tökdüyünün fərqində deyilmi? Dövlətlər arasında zaman-zaman müəyyən problemlərin olması normaldır. Lakin bu problemləri İrma xanımın məntiqi ilə çözməli olsaq nələrin baş verəcəyini təsəvvür etmək belə çətindir. Mən onun yerinə olsaydım Azərbaycanla Gürcüstan arasında mövcud olan ərazi problemlərini həll etmək üçün başqa bir təklifdə bulunardım. Həmin mübahisəli ərazinin xalqların, mədəniyyətlərin və hətta dinlərin mərkəzi, simvolu olmasına çalışardım.

Heç kimdən gizlin deyil ki, "Vətənpərvərlər" özlərinin Rusiyaya sevgiləri ilə tanınırlar. Artıq o da sirr deyil ki, onların parlamentdə 6 deputatla təmsil olunmaları da cəmiyyətdə birmənalı qarşılanmayıb. Və düşünürəm ki, nə yaxşı bu cür düşüncəyə sahib olanlar ölkə parlamentində çoxluq təşkil etmirlər. Onların məntiqilə hərəkət etsək biz ölünü qoyub, dirini ağlamalı olarıq. Göz yaşlarımız illərdir ki, qurumur. Nədən ki, bunu istəməyənlər göz qabağındadır...

## GÜRCÜSTAN PREZİDENTİ ÇOXPARTİYALI PARLAMENTİN BAŞ TUTMADIĞINI VURĞULAYIB

Gürcüstan Prezidenti Georgi Marqvelaşvili seçkilərin uğurlu keçməsi münasibətilə ölkə vətəndaşlarını təbrik edib.

Ölkə başçısı bununla belə doqquzuncu çağırış parlamentin çoxpartiyalı olmayacağını vurğulayaraq ictimaiyyəti "hakimiyyətə nəzarət etməyə" çağırıb.

Prezident "Rustavi " telekompaniyasının efirində yayımlanan öz videomüraciətində deyib: "2016-cı il seçkiləri baş tutub... Sizi 2016-cı ilin uğurlu parlament seçkiləri münasibətilə təbrik edirəm".

Dövlət başçısı müşahidəçilərə və KİV nümayəndələrinə seçkilərin gedişində gördükləri işə görə təşəkkür edib. O, ictimaiyyəti siyasi dialoqda fəal iştiraka səsləyib.

Georgi Marqvelaşvili deyib: "Çoxpartiyalı parlament alınmadı, bunun nə mənadasa cəmiyyətin sifarişi olmasına baxmayaraq, cəmiyyətə siyasi fəaliyyətin seçkilərlə başa çatmadığını, əksinə onunla başladığını xatırlatmaq istəyirəm. Ona görə də mən hamını diskussiyalarda, siyasi dialoqlarda fəal iştirak etməyə və hakimiyyətə nəzarət etməyə çağırıram".

## VAXTANQ XMALADZE: "GÜRCÜ MİLLƏTÇİLƏRİNƏ REAKSİYA VERMƏYƏ DƏYMƏZ"

"Azərbaycan ictimaiyyəti Gürcüstandakı müxtəlif marqinal qrupların populist bəyanatına fikir verməməlidir" – Respublika partiyasından Gürcüstan parlamentinin keçmiş deputatı Vaxtanq Xmaladze belə deyib.



Söhbət yeni parlamentdə 6 nümayəndə ilə təmsil olunan milliyyətçi "Vətənpərvərlər alyansı" partiyasının liderlərinin Gürcüstanın qonşu ölkələrlə, əsasən də Azərbaycanla münasibətlərinə dair təhrikçi çıxışları barədə gedir.

Millətçilərin parlament seçkilərində 5%-lik baryeri aşmağa necə müvəffəq olmalarını haqqin.az saytına izah edən Xmaladze qeyd edib ki, istənilən cəmiyyətdə saxta vətənpərvərlik şüarlarından istifadə edən qruplar mövcuddur. Gürcü millətçiləri də məhz belə edərək, özlərini vətənpərvərlik dəyərlərinin həqiqi qoruyucuları kimi göstərməyə çalışırlar.

"Lakin nəzərə alınsa ki, keçən seçkilərdə seçicilərin 50%-ə yaxını iştirak edib və 150 parlament üzvü arasında 2,1% seçicinin müdafiə etdiyi yalnız altı millətçi deputat var, onda "Vətənpərvərlər alyansı" istəsə də Gürcüstan ali qanunvericilik orqanının qərarlarına və ölkədəki siyasi həyata təsir edə bilməz" – Xmaladze vurğulayıb.

O, qeyd edib ki, "Alyans" Gürcüstanda Rusiyapərəst partiya hesab olunur. Gürcü millətçiləri bir qayda olaraq qonşu dövlətlərə qarşı olmadıqlıranı, amma əcnəbi vətəndaşların xüsusi biznesdə və dövlət layihələrində üstünlüklərinin əleyhinə olduqlarını irəli sürürlər. "Əlbəttə, belə partiyanın parlamentə düşməsi xoşagələn hal deyil. Lakin, xoşbəxtlikdən hər cür yalançı vətənpərvər bəyanatlar gürcü cəmiyyətində heç bir rəğbət qazanmır. Bütün bunlar boş səs-küydən başqa bir şey deyil" – Xmaladze belə hesab edir.

## GÜRCÜSTAN DOİNG BUSİNESS REYTİNQİNDƏ 16-CI OLUB

Gürcüstan biznesin aparılması üçün şərtlərin sadəliyi səviyyəsini qiymətləndirən Doing Business-2017 reytinqində 16-cı pillədə qərarlaşıb. Bu barədə Dünya Bankının və Beynəlxalq Maliyyə Korporasiyasının məruzəsində deyilib.

Reytinq üzrə Gürcüstanın qonşuları 15-ci olan Avstraliya və 17-ci pilləni tutan Almaniyadır.

Doing Business-2017 hesabatının ayrı-ayrı kateqoriyaları üzrə Gürcüstan növbəti yerləri tutub: biznesin başlanılması üzrə 8-ci, tikintiyə icazə alınması üzrə 8-ci, mülkiyyətin qeydiyyatı üzrə 3-cü, kredit alınması üzrə 7-ci, sərmayəçilərin müdafiəsi üzrə 7-ci, vergilərin ödənilməsi üzrə 22-ci, xarici ticarət üzrə 54-cü, müqavilələrin yerinə yetirilməsi üzrə 16-cı, biznesin bağlanması üzrə 106-cı, elektrik enerjisindən istifadənin mümkünlüyü üzrə 39-cu.

Məruzəyə görə, Gürcüstan keçən il beş mühüm islahat həyata keçirib: elektrik təchizatının etibarlılığı yüksəlib, vergi ödəmə sistemi sadələşdirilib, sərmayəçilərin hüquqlarının müdafiə səviyyəsi artıb, torpaq ehtiyatlarının idarə olunmasının keyfiyyəti artıb, idaxal və ixraca dair müqavilələrin sənədləşdirilməsi sürətləndirilib.

Doing Business
THE WORLD BANK IFC
2013

Gürcüstan Doing Business indeksi üzrə 2015-2016-cı illərdə iqtisadiyyatı daha çox inkişaf edən 10 ölkə arasındadır.

Reytinqə Yeni Zelandiya başçılıq edir. Keçən ilin lideri olan Sinqapur ikincidir. Bunlardan başqa onluğa Danimarka, Honkonq, Koreya Respublikası, Norveç, Böyük Britaniya, ABŞ, İsveç və Makedoniya da daxildir.

Doing Business məruzəsi artıq 14-cü dəfədir tərtib olunur və 190 ölkəni əhatə edir.

Məruzədə ilk dəfə gender faktoru da araşdırılıb. Qadınlar dünya əmək bazarının 40%-ini və universitet tələbələrinin 50%-ini təşkil edirlər.

## TURİSTLƏR ÜÇÜN ƏN UCUZ MƏNZİL TƏKLİF EDƏN AVROPA ŞƏHƏRLƏRİNİN SİYAHISI HAZIRLANIB

"Airbnb" saytı turistlər üçün ən ucuz mənzil təklif edən Avropa şəhərlərinin siyahısını hazırlayıb.

Siyahıda ilk sıranı Gürcüstanın paytaxtı Tbilisi tutub. İkinci yerdə Serbiyanın paytaxtı Belqrad, üçüncü yerdə isə Türkiyənin ən böyük şəhəri İstanbul qərarlaşıb.

Ən ucuz mənzil təklif edən 10 Avropa şəhəri isə aşağıdakılardır:

Tbilisi, Gürcüstan – 30 dollar; Belqrad, Serbiya – 33 dollar; İstanbul, Türkiyə – 33 dollar; Selaniki, Yunanıstan – 34 dollar; Sofiya, Bolqarıstan – 34 dollar; Buxarest, Rumıniya – 34 dollar; Sankt-Peterburq, Rusiya – 35 dollar; Kiyev, Ukrayna – 35 dollar; Zaqreb, Xorvatiya – 39 dollar; Varşava, Polşa – 39 dollar.

## QİQİ QİQİADZE: GÜRCÜSTAN VƏ AZƏRBAYCAN. BİZ BİR-BİRİMİZƏ LAZIMIQ

Gürcüstan və Azərbaycan arasında əməkdaşlıq artıq hamıya məlum olan məşhur Bakı-Tbilisi-Ceyhan layihəsilə hələ 90-cı illərdə başlanıb. Sonra Bakı-Tbilisi-Qars layihəsi oldu. İndi TAP qaz xətti üzərində iş gedir.



**Bu birgə layihələr Gürcüstan iqtisadiyyatı üçün nə dərəcədə əhəmiyyətlidir?**

Müstəqillik əldə etdikdən sonra həm Gürcüstan, həm də Azərbaycan iqtisadi reallıqları və təhlükəsizlik məsələlərini nəzərə almaqla yeni çağırışlar qarşısında qaldılar. Bu ölkələrin coğrafi mövqeyi və Azərbaycanın karbohidrogen ehtiyatları böyük maraq doğururdu. Yeni enerji dəhlizlərinin lazımlılığı haqqında məsələ qalxdı. Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan neft kəmərlərinin və Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisi regionda və regiondan kənarda vəziyyəti dəyişdi. Dünyanın enerji xəritəsində enerji resurslarının nəqli istiqamətində yeni perspektivlər meydana çıxdı.

Məlum olduğu kimi, hazırda Şahdəniz yatağının mənimsənilməsinin ikinci mərhələsi gedir, onun başa çatmasından sonra ölkələrimiz Avropanın enerji təhlükəsizliyi arxitekturasına daha mühüm pay verəcək.

Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinə gəlincə, ekspertlər onu dünyanın mühüm strateji layihələrindən biri hesab edirlər, bunu 2011-ci ilin yanvarında Nyu-Yorkda keçirilən "Global Infrastructure Leadership Forum" tərəfindən onun 100 mühüm qlobal layihə siyahısına daxil edilməsi də təsdiqləyir.

Layihənin tamdəyərli fəaliyyəti üçün yolun Türkiyə sahəsində tikintinin başa çatması lazımdır. Türk tərəfinin bu sahədə tikintini 2016-cı ilin sonlarına doğru başa çatıraçağına ümid edirik. Hesab edirik ki, yeni dəmiryol xəttinin işə düşməsi regionun nəqliyyat gücünü və cazibədarlığını əhəmiyyətli dərəcədə artıracaq.

**Gürcüstanın Baş Nazirinin yaxınlarda Azərbaycana səfəri çox uğurlu olub, tərəflər konkret olaraq nə barədə razılığa gəliblər, hansı layihələr prioritet olacaq?**

Gürcüstan Baş Nazirinin Azərbaycana sentyabrın əvvəlindəki səfəri həqiqətən də uğurlu keçib. Azərbaycanın Prezidenti və Baş Naziri ilə görüşlərdə tərəflər iki ölkənin əsas strateji tərəfdaşlıq məsələlərini müzakirə ediblər. Söhbət şərq-qərb tranzit dəhlizi çərçivəsində ikitərəfli və çoxtərəfli əməkdaşlığın perspektivlərinə aid olub. Ümumilikdə həm "Yeni ipək yolu" layihəsinin, həm də bu layihənin mühüm həlqələrindən biri olan konkret olaraq Bakı-Tbilisi-Qars dəmiryolunun iqtisadi və geosiyasi əhəmiyyəti vurğulanıb.

Qlobal enerji layihələrinin, eləcə də cənub qaz dəhlizinin həyata keçirilməsi prosesində Gürcüstanın və Azərbaycanın əməkdaşlığının əhəmiyyəti qeyd olunub. Bu layihənin uğurla başa catması Avropanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsi üçün xüsusilə mühümdür, habelə nəqliyyat və energetika sahəsində möbcud birgə layihələrin gerçəkləşdirilməsindən nəinki iki ölkənin, həm də bütün bölgənin sabitliyi və rifahı asılıdır. Gürcüstan və Azərbaycan arasında iqtisadi münasibətlərin dinamik inkişafına baxmayaraq, hər iki tərəf bu münasibətlərin daha da dərinləşdirilməsi üçün potensialımızın olması ilə razıdır.

**Gürcüstanda Azərbaycan sərmayəçilərinin rolu necədir? Onlar hansı sahələrə pul yatırırlar? Bu sahədə müsbət dinamika varmı?**

Digər strateji tərəfdaşlıq sahələrində olduğu kimi, investisiya sahəsi də artan dinamika ilə xarakterizə olunur. Azərbaycan sistemli şəkildə əsas sərmayəçi ölkələrin onluğunda yer tutur. 2015-ci ildə Azərbaycan Gürcüstana 550 milyon dollar sərmayə qoyub ki, bu da 2014-cü illə müqayisədə 61% çoxdur. 2016-cı ilin birinci yarısının göstəricilərinə görə, Gürcüstana qoyulan Azərbaycan investisiyası 282 milyon 500 min dollar təşkil edib.

Gürcüstanda ən böyük Azərbaycan sərmayəçisi dövlət şirkəti SOCAR-dır, onun bugün Gürcüstanda 114 yanacaq doldurma məntəqəsi və Kulevidə dünya bazarına xam neft və yanacaq məhsulları nəql edən neft terminalı var.

**Gürcüstanın Avropa İttifaqı ilə azad ticarət haqqında razlaşmasının olduğunu nəzərə aldıqda Gürcüstan Azərbaycan üçün Avropaya açılan özünəməxsus pəncərə ola bilər. Birgə gürcü-Azərbaycan məhsullarının Avropa bazarlarına çıxarılmasına dair planlar mövcuddurmu?**

Liberal, sabit, təhlükəsiz və korrupsiyadan azad biznes mühiti ilə birlikdə ölkənin coğrafi yerləşimi Gürcüstanı cazibədar investisiya ölkəsi edir. Biz dünyanın liberal bazarları ilə sonrakı inteqrasiya və Aİ və Avropa Azad Ticarət Təşkilatı ölkələri ilə, habelə ABŞ və Çinlə azad ticarətin inkişafının Gürcüstanın investisiya cazibədarlığını əhəmiyyətli dərəcədə artıracağını gözləyirik.

Aİ ilə assosiasiya haqqında müqavilənin (DCFTA da daxil olmaqla) imzalanması ilə Gürcüstan ticarətin liberallaşdırılması, dünyanın aparıcı bazarləri ilə inteqrasiya və Avropa səviyyəli istehsal standartlarının formalaşdırılması istiqamətində irəliyə doğru mühüm addım atıb. Müqavilənin qüvvəyə minməsi Aİ ilə münasibətlərdə yeni mərhələnin başlanmasını şərtləndirir. Bu, digər ölkələrin biznesmenlərinə xammal gətirərək Gürcüstanda istehsal etməyə və sonra öz məhsullarını Avropa ölkələrində satmağa imkan verir.

**Azərbaycan və İran prezidentlərinin bir qədər əvvəlki danışıqları İran üçün Azərbaycandan keçən nəqliyyat dəhlizinin yaradılmasına dair razılaşmaya gətirib çıxardı. İranın enerji ehtiyatlarının ixracı üçün dəhlizin yaradılması da mümkündür. Gürcüstanın bu layihələrdə iştirak perspektivləri necədir?**

İranın nüvə proqramına dair razılaşma əldə olunduqdan sonra bu ölkənin dünya birliyi ilə siyasi, iqtisadi, elmi, texnoloji və mədəni əlaqələrinin inkişafı nöqteyi-nəzərindən yeni imkanları meydana çıxıb. Qeyd etmək lazımdır ki, İranın beynəlxalq arenya çıxması regionda iqtisadi proseslərə müəyyən düzəlişlər edəcək. Əminəm ki, bunlar region ölkələrinin iqtisadi inkişafına müsbət təsir edəcək.

Ölkənin infrastrukturnun inkişaf etdirilməsinin Gürcüstan hakimiyyətinin prioritetlərindən biri olması məlumdur. Bu, magistral avtomobil yollarının tikintisini, dəmiryolu, dəniz və hava nəqliyatının modernləşdirilməsini, mövcud limanların bərpasını və ən vacibi Anakliyada nəhəng ticarət limanının tikintisini şərtləndirir. Bir sözlə, düşünürəm ki, regionun tranzit potensialının mənimsənilməsi işində Gürcüstanın töhfəsi olduqca əhəmiyyətli olacaq.

*Mənbə: Новости-Грузия https://www.newsgeorgia.ge/gruziya-i-azerbajdzhan-my-nuzhny-drug-drugu/#t20c*

Çevirəni: A. M. Alısoy

## DƏMİR ƏSƏBLİ DAĞLAR
### (sinergiya)

*Əsəbləri dəmirdəndi dağların;*
*dəmirəsəb – mən dağlara oxşadım. –*



Müəlliflik hüququ Mirzə Qələmə məxsus olan bu həzin-füzun misraları Mahir müəllimə də oxumuşam. İndi ikinci dəfə Gürcüstan parlamentinə seçilən Mahir müəllim – Mahir Dərziyev – arada-sırada məni görəndə ətəklərinə yaxın yaşadığım "dəmir əsəbli dağlar"ı da soruşur. Amma haralardan ağlına gəlsin ki, bu ilin iyul günlərinin birində onunla düzilqarlı Əyriqarın yeddi yüz yetmiş yeddi addımlığında görüşdüyüm andan bəri hər dəfə "dəmir əsəbli dağlar" deyərkən yadıma düşən üç nəfər əmanətdar və dəmirəsəb dağlar oğlundan biri məhz Mahir müəllimdir.

...bilirəm sizə bunun "niyə"si lazımdır, mən də indi elə bunun "niyə"sini yazıram.

"Mahir Dərziyev onu bacarmır, bunu bacarmır", "Mahir Dərziyev nə iş görə bilər ki?", "Mahir Dərziyev təəssüb və təkəbbür dolu tədbirlərimizə gəlmir" və sairə və ilaxır... Bu demokratik idarə üsulunda – plüralizm və söz azadlığı ilə dopdolu dövranda kimə nə deyə bilərsən? Deyilənlərdə, danışılanlarda gap da var, gop da var. Əlbəttə... cənnətin qapılarından biri doğruluq olduğuna görə, əgər biz bütün deyilənlərə inansaq, gərək onda biz də "uçurumun və xar olmağın kandarında" dayanaq.

Bəndər-bəndər burası da var: indi elə zənnü-inkar zəmanənin içindəyik ki, nəinki Mahir Dərziyevə, hətta Sultan Süleyman Qanuniyə də (əstəğfürullah!) hərbə-zorba gələnlər olur, Odisseyin oğlu Telemakı bilməsələr də, mentorluq eləyənlər tapılır... Amma tərki-diyar olmasın deyə, tərki-diyar Hələb ərəbləri demiş, ucqar sözümün "məniyi-əsrar"ına keçirəm.

...Açığı, mənə Mahir müəllimin elitar mədəniyyət tərəfi, kreativ tərəfi daha yaxın, daha əhəmiyyətli olduğuna görə, onun dəqiq nəyi deyib, nəyi demədiyini "araşdırmaq"dan artıq, bəzi yalanlara qarşı necə dözümlülük göstərməyi, əsəbini-qəzəbini "çəpərə hörməməyi" (ifadə unudulmaz şairimiz Məmməd Araza məxsusdur) maraqlı və ... arazbarı ağrılı gəlir. Bütün hallarda, Allahın Peyğəmbəri demiş, "bəndə yalan danışanda yaratdığı üfunətin iyindən mələklər bir mil aralı durarlar".

Siz Dəllərə, Sarvana, Lejvəddinə, Qaraçöpə baxmayın: Süsən-Sünbül tərəflərin bir təbarəkullah olmayan xarabazar xüsusiyyəti də var: elə ki, bir nəfər bərgi-xəzan Allah bəndəsini təkəmseyrək tərifləyirsən, dərhal Dədə Mirzə Tüpdağıdan hazır-amadə hoppanır: axı o nə yaradıb? Və nəticədə boyaboy belə məlum olur ki, gərək təkəmseyrək təriflədiyin o bir nəfər bərgi-xəzan Allah bəndəsi yolları düzəltdirməkdən, körpülər saldırmaqdan, müxtəsəri, pürxumar problemlər çözməkdən dolayı... ət də paylayaymış, yağlı düyü də yedizdirəymiş, pul da səpəymiş...

Sözümün təngnəfəs təkrarına bir də qayıdıram: Mahir müəllim yeganə soydaşımız olaraq məşhur gürcü yazıçısı Çabua Amirecibinin dəfninə gedəndə də, zərif incəsənət tərəfimiz barədə Mədəniyyət nazirinə danışanda da, mədəni olmağın təkcə təhsillə ölçülmədiyi haqqında mübahisəyə qatılanda da, şair Nizami Paşa Saraclının şeirlərini öyüb öyünəndə də, Səttar Bəhlulzadənin telbətel tablolarına baxıb kövrələndə də və bir parlamentari olaraq ədaləti hər an siyasətin meyarı biləndə də çox səbirli və səmimidir.

...Fikir verin: dağları yarğan-yarğan yarıb, sinəsini söküb "faydalı qazıntılar"ını – dəmirini, misini, qızılını, almazını – daşıyırlar. Amma dağlar, dəmir əsəbli dağlar dəniztək dalğalanmaqdan, üzü Yaradana ilahi ibadətdən, ağ dumanın dililə yaylaqçılara yaylıq yelləməkdən yorulub bezikmirlər...

P.S.

Rəssam Rizvan İsmayıla həsr olunmuş "Zərrədən Günəşə" adlı kitabda Mahir müəllimin də reyhanəli yarpaq boyda yazısı var. O, başdan bir misal gətirir: "Müdrik bir qoca Süleyman peyğəmbərə üstündə "Bu keçər" sözləri yazılmış bir üzük verir və deyir:

– Əsəbiləşdiyin zaman bu üzüyə bax, bu sənə kömək edər.

Süleyman peyğəmbər qocanın dediklərinə əməl edirdi. Amma bir gün hətta bu üzük də ona əsəblərini sakitləşdirməyə kömək etmədi. O, əsəbindən üzüyü çıxarıb tullamaq istədikdə üzüyün içərisində "Hətta bu da keçər" yazısını gördü..."

Hər dəfə Əyriqar, Sənəkuçan, Şamdüyə tərəflərə baxanda mənə belə gəlir ki, Süleyman peyğəmbər öz sehirli üzüyünü bizim dağlara ərməğan eləyib: yoxsa bizim dağlar bu boyda dəmirəsəb olardılarmı? Və dağların dəmir əsəbləri öz əmanətdar oğullarına bu minvalla keçərdimi?..

...Dünən bir nəfər anası namaz üstə doğmayan aran balası iddia edirdi ki, bəs deməzsənmi, bir halda ki, dəmir paslanır, deməli, dəmir əsəblər də paslanır.

Nə gizlədim: mən inanmıram.

İBRAHİMXƏLİL



## GÜC NÜMAYİŞİNİN ARXASINDA DURAN GERÇƏKLƏR

Sahib MUSTAFA
*sahib1975.sm@gmail.com*

**Soyuq müharibənin birinci mərhələsində Şərqi Avropanın sosialist düşərgəsinə aid ölkələr NATO ilə keçmiş SSRİ sərhədləri arasında bufer zonası rolunu oynayırdısa, artıq indi belə "coğrafi məkan" aradan qalxmışdır. Qərb dünyası sosializm idealogiyasının çökməsini, Rusiyanın "özünə gəlməsi" mərhələsini məharətlə dəyərləndirdi. Çünki, Varşava müqaviləsi təşkilatı parçalandıqdan sonra bu quruma daxil olan Moskvanın keçmiş müttəfiqləri və Baltikyanı ölkələr ard-arda əks qütbdəki NATO-ya daxil oldular. Artıq, Şimali Atlantika blokunun Rusiyanın sərhədləri həndəvərində hərbi bazalar yerləşdirməsini bu təşkilatın Kreml üzərində psixoloji təsir sindromu yaratması kimi dəyərləndirmək olar. Ukrayna, Gürcüstan və Moldovanın NATO ilə sıx əməkdaşlığı və zamanı yetişdikdə ən əlverişli yaxın prespektivdə adıgedən hərbi təşkilata tamhüquqlu üzv qəbul edilməsi fikrinin səsləndirilməsi Rusiyaya edilən əlavə təzyiqdir.**

Şübhəsiz ki, Kreml də NATO-nun həmlələrnə adekvat reaksiya tədbirləri görməkdədir. Rusiyanın Yaxın Şərqdəki hərbi əməliyyatlarda "özünün yazdığı qayda"da iştirak etməsi Vaşinqtona hərbi dildə mesajdır. Rusiyanın özünün qərb sərhədləri zonası olan Kalininqrad vilayətində "İsgəndər" hərbi komplekslərini yerləşdirməsi NATO-nun şərqə doğru irəliləməsinin qarşısınıalma tədbiri kimi qiymətləndirmək olar. Bu hərbi qurğu vasitəsi ilə 2500 kilometrlik uzaqmənzilli hədəfləri vurmaqla yanaşı, hətta nüvəbaşlıqlı hava zərbələri də endirmək mümkündür. Rusiyanın bu addımı NATO-nu o qədər qıcıqlandırdı ki, hətta təşkilatın Baş Katibi Yens Stoltenberq Moskvanı təmsil etdiyi qrumun sərhədlərinə yaxınlaşmaqda və təşkilatın üzv-dövlətlərinə təhlükə yaratmaqda suçladı. Şübhəsiz ki, Baş Katibibin etiraz bəyanatı sırf diplomatik xarakter daşıyır və çətin ki, Moskva onu "eşitmiş" olsun.

Moskva və Vaşinqtonun bir-birinə güc nümayişi, diplomatik savaşı eyni zamanda Qara dəniz sularında da cərəyan etməkdədir. Rusiyanın Qara dənizdə genişmiqyaslı son hərbi təlimləri onun donanma qüdrətinin nəyə qadir olmasını nümayiş etdirməkdən başqa bir şey deyil. Eyni zamanda Bolqarıstanın dəniz akvatoriyasına aid sularda isə NATO birləşmiş hərbi dəniz qüvvələrinin nə üçün anoloji təlimlər keçməsinin səbəbini anlamaq asandır. Üstəlik, hər dəfə Ukrainada hökümət qüvvələri ilə separatçı qruplaşmalar arasında döyüşlər şiddətləndikdə ABŞ-ın hərbi gəmilərinin Qara dənizdə görünməsinin səbəbi onun "balıq ovuna" gəlmədiyindən xəbər verir və bu Moskvaya bir jestdir. Düzdür, Montryö müqaviləsinə əsasən Qara dəniz hövzəsinə aid olmayan ölkələrin hərbi gəmiləri yalnız 21 gün adı çəkilən dənizdə üzə bilər və həmin müddət bitdikdə Bosfordan çıxış gerçəkləşdirməlidir. Rus gəmilərinin isə sülhün və sabitliyin qoruma bəhanəsi ilə Abxaziyanın sahil sularında üzməsi Gürcüstanın ərazi bütövlüyünün təhdid edilməsindən başqa bir şey deyil. Odur ki, həm Rusiyanın, həm də NATO-nun Qara dənizdə üçüncü dövlətlər hesabına bir-birinə güc nümayiş etdirməsi həmin dövlətlərin təhlükəsizliyinin təhlükə altına düşməsi deməkdir.

**Şübhəsiz ki, hal-hazırda Rusiya xarici siyasətinin ən priaritet məsələlərindən biri NATO-nun sərhədlərinin genişlənməsinin qarşısını almaqdan ibarətdir. Yuxarıda adları qeyd edilən hər üç postsovet məkanı ölkəsinin Şimali Atlantika blokuna qəbul edilməsi ehtimalı Kremlin "səbr"inin tamam tükənməsi anlamına gələcəkdir. Belə bir durumun reallaşması üçün Moskva bütün vasitələrdən istifadə edəcək. Hətta, Rusiyanın açıq şəkildə NATO ilə "tet-a tet" toqquşma variantı istisna edilməməlidir. Ən böyük zərbənin isə bu təşkilata üzv olmaq istəyənlərə dəyəcəyini güman etmək olar.**

## POLŞADA SOVET ABİDƏLƏRİ QANUNDANKƏNAR ELAN EDİLİR

Polşa parlamentinin yuxarı palatası kommunizm və ya digər totalitar qurluşun təbliğatının qadağan olunması haqqında qanuna düzəlişlər layihəsinə səs verib. Dəyişikliyi 56 senator dəstəkləyib, 26 senator isə əleyhinə olub.

İslahat ölkədə 500-ə yaxın sovet abidəsinin və rəmzinin sökülməsini, habelə rayon, məktəb, uşaq bağçası, xəstəxana, mədəniyyət müəssisəsinin adlarının dəyişdirilməsini nəzərdə tutur.

Gələcək müzakirəsi seymin aşağı palatasında baş tutacaq layihənin müəlliflərinin fikrincə, abidələrin çoxu " totalitar quruluşu təbliğ edir, cəmiyyətə mənfi təsir göstərir, totalitarizm tərəfdarları bundan istifadə edərək öz baxışlarını yayırlar".

Milli Yaddaş İnstitundan icazə aldıqdan sonra abidələrin sökülməsi haqqında qərarı voyevoda qəbul edəcək. Qərara Mədəniyyət nazirliyində etiraz edə bilərlər.

## PENTAQON HƏRBİ KƏŞFİYYAT XƏRCLƏRİNƏ DAİR MƏLUMAT YAYIB



ABŞ-ın Müdafiə Nazirliyi başa çatan maliyyə ilində hərbi kəşfiyyat xərclərinə dair məlumatları dərc edib. Idarənin məlumatından hərbi kəşfiyyat xərclərinə cəmi 17,7 milyard dollar ayrıldığı bəlli olur.

Bu xərclər keçən ilin 1 oktyabrından cari ilin 30 sentyabradək olan dövrə aiddir.

Göstərilən xərclər xarici əməliyyatların maliyyələşdirilməsini əhatə edir.

Pentaqondan məlumatların dərc olunmasının hərbi kəşfiyyatın fəaliyyətinə təhlükə törətmədiyi bildirilib. Lakin Amerika hərbi idarəsinin məlumatında hərbi kəşfiyyatın büdcəsinə aid digər məlumatların milli təhlükəsizlik baxımından dərc edilməyəcəyi bildirilib.

Xatırladaq ki, bir qədər əvvəl ABŞ-ın Milli kəşfiyyat direktorunun dəftərxanası 2017-ci ildə ölkənin kəşfiyyat xidmətinin ehtiyaclarına 53,5 milyard dollar istəmişdi.

ABŞ Müdafiə Nazirliyindən isə 2017-ci ildə hərbi kəşfiyyat üçün 16,8 milyard dolların ayrılacağının nəzərdə tutulduğu bildirilib.

## RUSİYA BMT-NİN İNSAN HÜQUQLARI ŞURASININ YENİ TƏRKİBİNƏ SEÇİLMƏDİ

Rusiya BMT-nin insan hüquqlari şurasinin yeni tərkibinə seçilmədi.

Belə ki, Şərqi Avropa qrupundan Rusiyaya 112 ölkə səs verdiyindən, 144 səs alan Macarıstan və 114 səs alan Xorvatiya qalib gəlib.

BMT-nın BA-da baş tutan səsvermədə qrumun İnsan Hüquqları Şurasına 14 yeni üzv seçilib. Onlar 2017-2019-cu illər ərzində bu strukturda fəaliyyət göstərəcəklər.

Xatırladaq ki, 80-dən artıq xeyriyyə və hüquq mühafizə təşkilatı BMT ölkələrini Moskvanın Suriyadakı fəaliyyətinə görə Rusiyanı BMT-nin İnsan Hüquqları Şurasından buraxmamağa çağırırdı. Hüquq müdafiəçiləri bu məsələni İnsan Hüquqları Şurasına seçkilər öncəsi qaldırmışdılar.

Kremldən buna münasibət gecikdirilməyib. Moskvada bəyan ediblər ki, əgər Rusiyanı BMT-nin İnsan Hüquqları Şurasından kənarlaşdırmağa çağıran hüquq müdafiəçilərinin fəaliyyətləri Suriyada terrorçuların fəaliyyətlərinin müzakirəsində də ardıcıl və qəti olsaydı daha inandırıcı olardı.

## AVROPA POLİS TƏŞKİLATI 52 ÖLKƏDƏ HƏBSLƏR KEÇİRİB

Oktyabrın 19-da Avropa polis təşkilatı həftəlik beynəlxalq əməliyyatların gedişində 314 nəfərin həbs edildiyi barədə məlumat yayıb. Əməliyyatlar 52 ölkəni və dörd beynəlxalq təşkilatı əhatə edib.

Məlumatda deyilir: "Həftəlik əməliyyat nəticəsində 2,38 ton kokain ələ keçirilib, 529 nəfər insan alveri qurbanı müəyyənləşdirilib və 314 nəfər həbs olunub".




Qeyd olunur ki, hüquq mühafizə xidmətinin əməkdaşları ən təhlükəli cinayət şəbəkələrinə, xüsusilə də qeyri-leqal miqrasiyaya dair işlərə, insan, narkotika alverinə və kibercinayətlərə diqqət yetiriblər. Avropa polis təşkilatının məlumatına görə, həbs olunanların 193 nəfəri kibercinayətlə, 72 nəfəri insan alveri ilə, 31 nəfəri qeyri-qanuni mühacirətlə, 18 nəfəri isə narkotika ticarətilə əlaqəlidir.

Əməliyyatlar zamanı toplanmış məlumatlar əsasında daha 449 istintaqın aparılacağı da bildirilir.

## BİR İL ƏRZİNDƏ RUSİYADA SİYASİ MƏHBUSLARIN SAYI İKİ DƏFƏ ARTIB

Son bir il ərzində Rusiyada siyasi məhbusların sayı iki dəfə artıb. Bu barədə "Memorial" hüquq müdafiə təşkilatı məlumat yayıb.

Bir il qabaq təşkilat Rusiyada 50 nəfəri siyasi məhbus hesab etmişdi. Bu il siyahıya 102 adam daxil edilib.

"Memorial"da qeyd ediblər ki, hər iki siyahı aşkar şəkildə tam deyil. Siyahılara haqlarında hüquq müdafiəçilərinin kifayət qədər məlumat toplaya bildikləri adamlar daxildir.

Təşkilatda Rusiya və dünya ictimaiyyətinin ölkədəki siyasi əsaslarla və qeyri-qanuni azadlıqdan məhrumetmə problemlərini daha yaxşı qavraması üçün, eləcə də siyasi məhbuslarla ictimai həmrəyliyin yüksəldilməsi üçün belə bölünmə tətbiq edildiyini vurğulayıblar.

"Memorial" hüquq müdafiə mərkəzi siyasi məhbusların siyahısını hər il 30 oktyabr Rusiyada siyasi repressiya qurbanlarının anım günü ərəfəsində hazırlayır.

## ONLAYN KREDİTLƏRİN REAL İLLİK FAİZ DƏRƏCƏSİ 700%-Ə ÇATIR

**Son iki ildə Gürcüstanda onlayn kredit şirkətlərinin sayı açıq şəkildə artıb və onların fəaliyyətini heç kim və heç nə tənzimləmir, ildə bəzən 700%-ə çata bilən öz faiz dərəcələrini onların özləri müəyyənləşdirirlər.**

Bank borcları ala bilməyən azgəlirli adamlar üçün tez və asan onlayn kreditlər çox şirnikdiricidir, məhz buna görə, 3,7 milyon əhalisi olan, bunun da müəyyən hissəsini borc almaq hüququ olmayan yetkinlik yaşına çatmayanlar və ümumiyyətlə heç kimin kredit vermədiyi 65 yaşdan yuxarı qocalar təşkil edən ölkədə ötən 4 il ərzində 4 milyon onlayn kredit verilib.

"Cəmiyyət və banklar" təşkilatının ekspertlərinin rəyinə görə, onlayn şirkətlər müəyyən dərəcədə lombardları əvəz edib.

Təşkilatda belə hesab edirlər: "Son 2 ildə onlayn kredit şirkətləri çox fəallaşıb, onlar əsasən bazarda yüksək tələbat duyulan sürətli kreditlər verirlər. Demək olar ki, onlar daha çox lombardları əvəz ediblər, belə ki, onlayn şirkətlər lombardların mütləq tələb etdikləri təminat əvəzinə, sürətli və təminatsız kreditlər verirlər. Əsas odur ki, istehlakçılar sürətlə verilən asan borcların şərtləri barədə kifayət qədər məlumatlandırılmırlar, müvafiq olaraq onlar doğru və düzgün qərar da qəbul edə bilmirlər. Müştərilərin əksəriyyəti yalnız rəsmi aylıq və ya illik faizlərə baxır, lakin heç kim ödəməni gecikdirəcəkləri təqdirdə onları nə gözlədiyini, onlara qarşı hansı maliyyə sanksiyaları olacağını düşünmür".

Bununla belə onlayn şirkətlərin özləri də real faizlər, ödəmənin təxirə salınmasına görə komissiyon haqqı və s. barədə istehlakçını məlumatlandırmağa tələsmir.

Onlayn kreditlərdən əsasən öz xərclərinin hamısını mövcud qazancları ilə ödəyə bilməyən aşağı gəlirli vətəndaşlar istifadə edirlər.

"Belə adamları kreditlərdən istifadə etməməyə çağırmaq çətindir, çünki çox vaxt onların xərclərin öhdəsindən gəlmələri üçün bu yeganə imkandır, lakin heç olmasa biz onları nə gözlədiyi barədə obyektiv informasiya çadırmağa cəhd edirik" – "Banklar və maliyyə" qeyri-hökumət təşkilatında vurğulayıblar.

İlk növbədə potensial borc götürən kredit müqabilində nə qədər ödəyəcəyini, ödəmələri gecikdirdiyi halda onu hansı xoşagəlməzliklər təhdid edəcəyini nəzərə almalıdır.

Bununla belə onlayn şirkətlərin müştərilərinin çoxunun ödəmə qabiliyyətinin aşağı olmasını nəzərə almaq lazımdır. Bu növ kreditlərdən əsasən bankların, hətta mikromaliyyə təşkilatlarının borc verməkdən imtina etdikləri və ya artıq bank kreditləri olan şəxslər istifadə edir, belə vəziyyətdə onlayn kredit onlara lazım olan məbləğin alınması üçün yeganə alternativdir.

Bundan başqa kreditlərin ödənmədiyi hallarda onlayn şirkət kollektor şirkətləri işə qoşur, qazanclarını komissiyon kimi borcluların qaytardığı məbləğdən götürən bu şirkətlərin bacardıqca tez pul almaq istəmələrini də nəzərə almaq lazımdır.

Onlayn kredit şirkətlərinin fəaliyyəti heç bir xüsusi norma ilə tənzimlənmir. Belə ki, onlar maliyyə qurumu sayılmır, adi biznes şirkət hesab edilirlər. Onlar buna görə də Milli Banka hesabat vermirlər, onlara heç bir lisenziya və icazə lazım gəlmir. Bu səbəbdən də onlarda faiz dərəcəsi tamamilə özbaşına və nəzarətsizdir. Onlar nə qədər lazımdır tələb etmək hüququna malikdirlər və əgər müştəri razılaşırsa, bu onun günahıdır.

Qeyri-hökumət təşkilatında bildiriblər: "Onlayn kreditləri dövlət tənzimləməlidir. Əlbəttə, iqtisadi inkişaf üçün maliyyə institutlarının sabitliyi çox vacibdir, lakin istehlakçıların maraqlarının qorunması da gərəkdir. Təəssüf ki, əhalinin maliyyə savadlılığının səviyyəsi çox aşağıdır, buna görə də istehlakçılar müdafiəsiz qalırlar. Bu səbəbdən də dövlət öz üzərinə məsuliyyət götürməli və bu sahəni tənzimləməlidir. Məsələn, onlayn kreditlər şərtsiz verilməməli, borcluların kredit tarixi mütləq



yoxlanmalı, müştərinin gəlirindən asılı olaraq kreditin maksimum səviyyəsi məhdudlaşdırılmalıdır, paralel kreditlərin götürülməsi imkanlarını da məhdudlaşdırmaq gərəkdir. Bundan başqa, krediti götürməzdən əvvəl istehlakçı ödəməninin gecikdirilməsi halında nə qədər cərimə olunacağı barədə, effektiv kurs barədə tam məlumatlandırılmalıdır".

Mümkündür ki, çoxları bilmir, lakin onlayn kredit şirkətləri bütün, o cümlədən də vaxtı keçmiş borcların hesabını aparan "Kreditinfo" təşkilatı ilə sıx əməkdaşlıq edirlər. Məlum olur ki, 4 il ərzində verilmiş 4 milyon onlayn kreditin təxminən 400 mininin vaxtı keçib.

Vacib olan odur ki, bunu açıq etiraf etməsələr də, bu informasiya kommersiya banklarına bəllidir, belə ki, onlar üçün potensial müştərilərinin onlayn şirkətlərin xidmətlərindən istifadə edib-etmədikləri çox mühümdür.

Olduqca qeyri-rəsmi olsa da, onlayn krediti olan vətəndaşlar banklar üçün arzuolunmaz müştərilər hesab edilir. Hesab edirlər ki, onlayn şirkətlərə müraciət edənlər çıxılmaz vəziyyətdə qalanlardır. Buna görə də, onların maliyyə vəziyyəti o qədər də yaxşı deyil, buna görə də, bankirlər onlara kredit verməyin çox riskli olduğunu düşünürlər.

***Buna görə də, onlayn kredit götürmək niyyətinə düşərkən nəzərə almaq lazımdır ki, bununla bağlı məlumatlar "Kreditinfo"nun bazasında saxlanılır və banklarla münasibətləri korlaya bilər.***

*Mənbə:http://bizzone.info/finance/2016/1477708032.php*

Hazırladı: Elsevər ƏHMƏDOV

## GÜRCÜSTAN BEYNƏLXALQ TURİZM REYTİNQİNDƏ 71-Cİ OLUB

The Travel & Tourism Competitiveness Report-un tərtib etdiyi turist rəqabət qabiliyyəti reytinqində Gürcüstan 141 ölkə arasında 71-ci olub. Ölkəmiz Namibiya və İsrail arasında mövqe tutub.

Turist rəqabət qabiliyyəti reytinqi iki ildə bir dəfə Ümumdünya İqtisadi Forumu tərəfindən tərtib olunur.

Həmin reytinq üzrə Gürcüstan 2013-cü ildə 66-cı pillədə idi.

Reytinqin müəllifləri 14 faktora diqqət yetiriblər. Əlverişli işgüzar mühit, təhlükəsizlik, yol və aviasiya infrastrukturu, təbii və mədəni resurslar, qiymət səviyyəsi və viza qaydalarının sərtliyi kimi əlamətlər bu faktorlardandır.

Reytinqə İspaniya, Fransa, Almaniya, ABŞ və Böyük Britaniya başçılıq edir.

Postsovet ölkələri arasında turizim işinin ən yaxşı təşkili 38-ci yeri tutan Estoniyada, reytinqin 40-cısı olan Latviyada və 54-cü pillədə qərarlaşan Litvada qeydə alınıb.

Rusiya reytinqdə 45-ci, Azərbaycan 84-cü, Ermənistan isə 89-cu olub.

## MƏZHƏBLƏR VƏ ONLARIN TARİXİ KÖKLƏRİ



Hacı BƏKİROĞLU
*kafkasli@mail.ru*

**Orta Şərq və o cümlədən İslam dünyası bir atəş çuxuruna çevrilmiş vəziyyətdədir. Son zamanlarda elə bir gün olmur ki, islam ölkələri ya bir-biriylə, ya da digər ölkələrlə problem yaşamasınlar. İndi də Səudiyyə Ərəbistanı ilə İran ciddi bir problem yaşamaqdadır.**

Orta Şərqdə və ya İslam dünyasında yaşanan problemlərin kökündə şübhəsiz ki, müxtəlif faktorlar durmaqdadır. Məzhəbçiliyi, irqçiliyi və hakimiyyət qurma istəyini bunun ana səbəblərindən bir neçəsi olaraq dəyərləndirə bilərik.

Mən bu yazımda məzhəblərə və məzhəbçilik məsələlərinə toxunmaq istəyirəm.

İslam məzhəbləri gərək etiqadi, gərəksə əməli baxımdan müsəlmanlar üçün bir çıxış yolu və rəhmətdir. Bu məzhəblərin ortaya çıxışı da dini səbəblərə dayanmaqdadır.

Hz. Peyğəmbər dövründə dini mövzularda bir ixtilaf mövcud deyildi. Çünki bir problem olduğu zaman Hz. Peyğəmbərə soruşularaq həll edilirdi. Hz. Peyğəmbərdən sonra, səhabə və tabiun dövründən etibarən görüş ayrılığı başlamış, Əsri Səadətdən uzaqlaşdıqca da bu ixtilaflar böyümüşdür. Bu görüş ayrılıqlarının bir çox səbəbləri vardı.

Bu səbəblərin başında isə Hz. Peyğəmbərin vəfatından sonra ayə və hədislərdə açıq izah edilməyən məsələləri tam olaraq açıqlaya biləcək şəxslərin olmaması idi.

Bundan başqa Peyğəmbərimizin vəfatından sonra islam aləmi genişlənmiş, səhabələrdən hər biri bir şəhərə dağılmışdı. Bu səhabələr getdikləri yerlərdə müraciət qaynağı olurdular. Yeni müsəlman olanlar və ya islamiyyət haqqında çox məlumat sahibi olanlar onlardan müxtəlif məsələlərdə dinin hökmünü soruşardılar. Səhabələr də soruşulan sualların cavabını əvvəla Quran da axtarırdılar. Onda tapa bilmədikdə öz fətvalarıyla hökm verirdilər. Bu səhabələr eyni zamanda özlərinə Tabiun deyilən bir çox tələbə yetişdirdilər. Onlardan sonra tələbələri tabiun alimləri də bir tərəfdən fətva verərək müsəlmanları dini mövzularda bilgiləndirərkən, bir tərəfdən də tələbə yetişdirdilər.

İstər səhabə, istər Tabiun, istərsə də Təbəi Tabiunun fətvaları arasında fərqli hökmlər ortaya çıxmışdır. Müsəlmanlar öz bölgələrində yaşayan imamın fətvalarını bilir, onu seçir və ona görə əməl edirdilər. Elə bu seçim və tərəfdarlıq zamanla yerini "Gedilən yol" mənasını verən məzhəbləri meydana gətirmişdir.

İslam tarixinə baxdığımız zaman bu şəkildə ortaya çıxan etiqadi və əməli məzhəblər arasında mübahisələr və müzakirələr olsa da, heç bir zaman qərb cəmiyyətində olduğu kimi döyüşlər meydana çıxmamışdır. Ancaq qərb cəmiyyətində xristian məzhəbləri arasında qanlı döyüşlər olmuşdur.

Avropada "din döyüşləri" deyə xatırlanan və otuz il davam edən Otuz illik müharibə xristianlığın iki məzhəbi – katoliklər və protestantlar arasında olmuşdu.

Məzhəb savaşı nəticəsində minlərlə insan həlak olmuş, qan su yerinə axmışdır.

Ölən Hz. İsanın adı ilə ölürdü, öldürən İsa adına öldürürdü. Eyniylə bu gün İslam dünyasında da eyni ssenarilər yazılır, eyni rollar oynanır. Ölən də, öldürən də Allah deyir, təkbir gətirir.

İslam tarixində, hələ ki, Avropadakı məzhəb döyüşləri kimi döyüşlər olmayıb. Ancaq bu gün İslam dünyasındakı qarışıqlıq məzhəb savaşına doğru getməkdədir.

İslam ümməti bölük-bölük olmuş vəziyyətdədir. Təəssüf ki, orta çağın Avropası kimi bir-birinin qanını tökməkdədir.

**Qərb dünyası sərhədləri qaldırır, bir-birinə yaxınlaşır, ümməti İslam isə sərhədləri daha da gücləndirərək bir-birindən uzaqlaşır. Qərb cəmiyyəti ortaq pul vahidinə keçərkən, İslam ümməti öz məzhəbini, öz qəbiləsini, öz bayrağını ucaltmaq sevdasına qapılmış və bunun uğurunda qan tökməkdədir.**



## UZUN YAŞAMAĞIN SİRRİ NƏDİR?

Anar RAFİQOĞLU

**Uzun və sağlam ömür yaşamaq bütün insanların arzusudur. Bu yaxınlarda "Əzrailin unutduğu adamlar" adlı bir yazı oxudum. Yazıda dünyanın ən uzun ömürlü insanları haqqında məlumat verilmişdi. Mənim üçün çox maraqlı olan bəzi məqamları sizinlə paylaşmaq və sonda da öz fikrimi bildirmək istəyirəm. Bəri başdan qeyd edim ki, dünyanın ən uzun ömürlü insanı tam 122 il 164 gün yaşamış fransız qadın Janna Kalmandır. Yəni bəzi saytların, səhifələrin yazdığı kimi 200, 250 il yaşayan heç kəs olmayıb. Olsa da bunun rəsmi təsdiqi yoxdur. Bunu ona görə qeyd edirəm ki, sonra oxuyarkən "hə, nolsun ki, mənim qoca babam da 150 il yaşayıb" deməyəsiniz. Nə isə.**

Hər nə qədər yanlış nümunə olaraq saysam da, dünyanın ən uzun ömürlü insanı Janna Kalmanın həyatının böyük bir hissəsində siqaret çəkdiyini vurğulamalıyam. Hərəkətli həyat tərzinə sahib, velosiped sürməyi çox sevən bu qadın, uzun yaşamağının sirrinin stressiz həyat olduğunu bildirmişdi.

Bir digər uzun ömürlümüz, hələ də həyatda olan və noyabrın 29-unda 117-ci yaşını qeyd etməyə hazırlaşan italyan qadın Emma Moranodur. Çox qəribədir ki, Emma Morano uzun yaşamasının sirrini gündə iki çiy yumurta yeməsinə və evli olmamasına bağlayır. Əlbəttə, bunun da yanlış nümunə kimi alqılanmasını istəməzdim. Sonra, "mən evlənmirəm, çünki uzun ömürlü olmaq istəyirəm" – deməyin.

Siyahıdakı bir başqa uzun ömürlü insan Suzanna Muşatt Cons adlı afro-amerikalı qadındır. Bu ilin may ayında vəfat edən qadın, tam 116 il 311 gün həyatda olub. Və onun fikrincə uzun ömürlü olmağın sirri vaxtlı-vaxtında yatmaqdır.

Və son olaraq, siyahıdakı yeganə və rəsmi olaraq dünyanın ən uzun ömürlü kişisi ünvanına sahib İsrail Kristal haqqında da qısaca məlumat vermək istəyirəm. 1903-cü ildə dünyaya gələn və 113 il yaşayan İsrial Kristal, həm Birinci, həm də İkinci dünya müharibəsində iştirak etmiş, ikisində də həyatda qalmağı bacarmışdı. Hətta İkinci dünya müharibəsində Hitler Almaniyasının soyqırım törətdiyi dövrlərdə nasist həbs düşərgələrindən birinə düşmüş, ordan da sağ çıxmışdı. Yəni, bir az zarafatla desək, bu adamı Hitler belə öldürə bilməmişdi. Ancaq İsrial Kristaldan uzun ömürlü olmağın formulu soruşulduqda, heç bir özəl sirrin olmadığını söyləmişdi.

Uzun ömürlü bəzi insanlar haqqında qısaca məlumat əldə etdik. Bir şey aydın oldu ki, qadınlar kişilərdən daha çox yaşayır. Əbəs yerə deyil ki, dünyanın rəsmi olaraq ən uzun ömürlü 8 insanından yeddisi qadındır. Hətta mən bu mövzuda xəbər oxuduğum yerdə maraqlı və məzəli şərhlər yazılmışdı. Siyahıda uzun ömürlü kişilərin niyə az olduğunu yazan bir oxucuya, bir digər oxucu: "kişilər çox yaşamır, çünki qadınların əlindən vərəmləyib ölürlər" yazmışdı.

**İndi bütün zarafatları bir kənara qoysaq, əslində uzun ömürlü olmağın konkret bir sirri olmadığını anlamaq üçün dahi olmağa gərək yoxdur. Bir çoxunuz bəlkə də, yazının başlığını oxuyub maraqlandınız ki, görəsən necə uzun ömürlü ola bilərik. Əlbəttə ki, siqaret çəkməmək, idmanla məşğul olmaq, vaxtlı-vaxtında yatmaq, stressdən uzaq olmaq, normal və düzgün qıdalanmaq, bunlar insanın daha sağlam olmasında mühim rol oynayır. Amma ömür? O artıq insanın alın yazısından aslıdır daha çox. Düzdür, alın yazısına inanmayan insanlar da var. Amma insanlar bəzən heç gözləmədiyi bir anda cinayətə, qəzaya, xəstəliyə qurban gedir, belə hallar varkən, alın yazısını tam inkar etmək nə dərəcədə düzgündür? Nə isə. Mövzumuz bu deyil. Yazımın başında da qeyd etdiyim kimi, uzun yaşamaq böyük əksəriyyətin arzusudur. Elə sadəcə bir şeyi misal gətirim. Ən əziz xeyir-dualarımızdan biri nədir? 100 yaşa! Amma o 100 ili boş yaşadınsa nə faydası? Ona görə yaxşı olar ki, uzun yaşamaq yox, düzgün yaşamağın dərdinə düşək. Bunu da xahiş edirəm, öyüd-nəsihət kimi qəbul etməyin.**

## TBİLİSİDƏ "ƏLİ VƏ NİNO" FİLMİNİN PREMYERASI OLUB

Oktyabrın 22-də Gürcüstanın paytaxtı Tbilisidə "Əli və Nino" bədii filminin gürcü dilində premyerası olub.

Tədbirdə Azərbaycanın Gürcüstandakı səfiri Azər Hüseyn, Batumidəki baş konsul Rəşad İsmayılov, səfirliyin əməkdaşları, SOCAR-ın Gürcüstan Nümayəndəliyinin baş direktoru Mahir Məmmədov və şirkətin işçiləri, Gürcüstanın mədəniyyət və abidələrin mühafizəsi naziri Mixail Georqadze, Tbilisi şəhərinin meri David Narmaniya, Türkiyə səfiri Zeki Levent Gümrükçü, kino, mədəniyyət və incəsənət xadimləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.



Mərasimində çıxış edən Mixail Georqadze vurğulayıb ki, filmin gürcü dilinə tərcümə olunması, Azərbaycan və gürcü xalqları arasında əlaqələrin möhkəmlənməsinə mühüm töhfədir. Nazir deyib: "Çox şadam ki, bu film gürcü dilinə tərcümə olunub və Tbilisidə tamaşaçılara təqdim olunur. Əminəm ki, bu hadisə ölkələrimiz arasında mədəni əlaqələrin inkişafında yeni səhifə açacaq".

Qurban Səidin eyni adlı romanı əsasında ekranlaşdırılmış film XX əsrin əvvəllərində Azərbaycanın müstəqilliyi uğrunda mübarizəsindən və fərqli dinlərə mənsub iki gəncin məhəbbətindən bəhs edir. Ekran əsərinin çəkilişləri İçərişəhərin küçələrində və Bakının müxtəlif yerlərində, Qobustanda, Qubanın Xınalıq kəndində və başqa yerlərdə aparılıb.

"Əli və Nino" filminin icraçı prodüseri Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, prodüseri Kris Tikye, rejissoru BAFTA mükafatı laureatı Asif Kapadia, ssenari müəllifi "Akademi Avard" mükafatı laureatı Kristofer Hemptondur.

Filmdə Adam Bakri, Mariya Valverde, Xalit Ergenc, Mendi Petinkin, Koni Nilson, Rikkardo Skamarçio, Humayon Erşardi, Fəxrəddin Manafov, Assaad Buab, Numan Akar və başqa tanınmış aktyorlar çəkiliblər.

Oktyabrın 5-də Bakı şəhərində premyerası olan film nəinki Azərbaycanda, eləcə də xarici ölkələrdə böyük maraq doğurub. Film başqa dillərə də tərcümə olunacaq.

"Əli və Nino" filmi oktyabrın 23-dən Gürcüstanın bütün bölgələrində nümayiş etdiriləcək.

## SON BEŞ İLDƏ GÜRCÜSTANIN DOĞUM GÖSTƏRİCİSİ YAXŞILAŞIB

Son illərdə Gürcüstanda orta doğum göstəricisi artıb. Son beş il ərzində Gürcüstanda ümumilikdə 7 regionda 256 106 insan dünyaya gəlib. Gürcüstan Milli Statistika Mərkəzinin məlumatına görə, son beş il ərzində ən çox uşaq Tbilisidə dünyaya gəlib. Daha sonrakı yeri İmereti region tutur. Ən aşağı doğum göstəricisi isə Raca-Leçxumidə qeydə alınıb, rəsmi statistikaya görə burada orta doğum göstəricisi cəmi 1 faizdir.

## GÜRCÜSTAN VƏTƏNDAŞLARININ 46%-İ OĞLAN UŞAQLARINA ÜSTÜNLÜK VERİR



Gender əlamətlərinə görə uşağın cinsinin müəyyənləşdirilməsi kimi zərərli praktika Gürcüstanda geniş yayılıb. Bu barədə BMT-nin əhali sahəsində Fondunun hesabatında danışılır.

Hesabatda qeyd olunur ki, bir uşaq olduğu halda Gürcüstan vətəndaşlarının 46%-i oğlu olmasına, 9%-i qızı olmasına, 45%-i isə uşağın cinsinin əhəmiyyət daşımadığına üstünlük verib.

Hesabatda bildirilir: "Doğum zamanı cinslər arası nisbətin orta göstəricisi 2008-2012-ci illərdə 111,8 təşkil edib (bioloji norma 105-106-dır).

Bu göstəricilər Gürcüstanda yaşayan qadınların 18 yaşadək ərə getdiyini təsdiqləyir. Lakin bu göstəricilər tam olmaya bilər, belə ki, erkən nikahlar tez-tez rəsmi qeydiyyata alınmır. Erkən nikahlardan dünyaya gələn oğlanların sayı qızlarla müqayisədə bir qədər azdır".

## ƏLAÇILAR FƏRDİ BİLGİSAYARLARLA MÜKAFATLANDIRILACAQLAR

Orta təhsilin baza pilləsini – 9-cu sinfi əla qiymətlərlə bitirən Gürcüstan məktəbliləri Gürcüstan Təhsil və Elm Nazirliyi tərəfindən fərdi bilgisayarlarla mükafatlandırılacaqlar.

Nazirlik bilgisayarları ilin sonunadək mərhələlərlə verəcək. Təhsil nazirinin müavini Ketavan Natroşvili artıq Msxeta rayonunda ictimai məktəblərin 24 əlaçı şagirdinə hədiyyələri təqdim edib.

Natroşvili deyib: "Biz ölkə miqyasında göstəriciləri müşahidə edirik, onlar yaxşılaşıb. Əgər keçən il baza pilləsini 1984 şagird uğurla başa vurmuşdursa, bu il onların sayı artıq 2478-ə çatıb".



Məktəblilərin həvəsləndirilməsi hər il həyata keçirilir. Layihənin məqsədi şagirdlərin motivasiyasını artırmaqdan, habelə onların müasir texnologiyalara yiyələnmələrini yaxşılaşdırmaqdan ibarətdir.



Elmuraz KÖÇƏRİ

## SƏNSİZLİYİN TABLOSU

**Leysandan ayılmış bu yaz axşamı**
**Solğun bir ay doğub kəndin üstünə.**
**Dolaşır dağlarda şair ilhamı,**
**Yenə mən yazığın durub qəsdinə.**

**Uzaqdan səs gəlir, ildırım düşür,**
**O mənə səs verir, guruldamır ha.**
**Yenə qurbağalar yaman ötüşür,**
**Onlar cəh-cəh vurur, quruldamır ha.**

**Hop-hoplar dincəlmir, bilmirəm necə?**
**Ağladır yenə də çöl xoruzları.**
**Mənə sirdaş deyil bu qərib gecə,**
**Nə karvan yolunun sıx ulduzları.**

**Durmuşam eyvanda – bir qara kölgə,**
**Orda sən yatmırsan, burda mən, gülüm!**
**Hər şey öz yolunda, dünyada bəlkə**
**Bircə sən çatmırsan, bir də mən, gülüm?!**

## OLMUR

**Ürəkdi, həvəsdi, başdı, bədəndi?..**
**Yaşdandı, bilmirəm, yoxsa nədəndi?**
**Həmənki yolları, bu köhnə kəndi**
**Vaxt tapıb, doyunca dolaşmaq olmur.**

**Saldığım haraydan pırıldamır quş,**
**Yolun ortasında saxlayır yoxuş,**
**Bulağı qurumuş, çəməni solmuş**
**Zirvələr oxşamaq, yal aşmaq olmur.**

**Hər ötən günlərim – ötən saniyə,**
**Ən şirin xatirəm dönür caniyə,**
**Keçmişə qaçıram, bilmirəm niyə**
**Getdiyim yollara calaşmaq olmur?**

**İşim yox,Cirtannan, itnən, işıqnan,**
**Kəsilib salamım, ”qurdnan”, “vaşaqnan”,**
**Hər gün dalaşdığım uşaq-muşaqnan**
**Son vaxtlar nədənsə dalaşmaq olmur.**

**Özümə qayıtdı selə atdığım,**
**Kül çıxdı çiçəyə, gülə qatdığım,**
**Kiminsə yolunda lilə batdığım**
**Cığırın tozuna bulşamaq olmur.**

* * *

**Yenə saz ömrümün dillənir simi,**
**Sallaşıb yaxamdan bir qərib axşam.**
**Oyuncaq itirən uşaqlar kimi**
**Hələ də sən gedən yolda qalmışam.**

**Gah qaya dibində, gah kötük üstə**
**Dayanıb,baxıram lap uzaqlara.**
**Gah qəlbi yaralı, gah ruhu xəstə,**
**Yaxın dost olmuşam yalquzaqlara.**

**Nə olsun, əllərin əlimə çatmır?**
**Ruhun da uzaqmı ruhumdan, barı?**
**Sənsiz öz könlüm də könlümə yatmır,**
**Neyləyim, de, səndən qalan qubarı?!**

**Səninmi səsindi qulaqlarımda?**
**Sənsənmi kölgədə duran qaraltı?**
**Sən varkən dilimdə, dodaqlarımda,**
**Cəhənnəm olubdu Allahın altı.**

## ANALAR

Elə ki, balası gəlir dünyaya,
Hər gün qəm odunda çimir analar.
Yumşalır ürəyi, bərkiyir canı,
Dərdini kimsəyə demir analar.

Çürüdür ömrünü bilmədən necə,
Yatammır, sabahı düşünür gecə,
İnciyir gizlicə, küsür gizlicə,
Almayır sübhəcən çimir analar.

Yoxunu gizlədir, varını danmır,
Ürəyi yansa da, sevgisi yanmır
Aclığa yenilmir, yoxluğa sınmır,
Əyilməz analar, dəmir analar.

Laylası muğamat, söhbəti şeir,
Övladın yolunda əlli don geyir..,
Yalan da söyləyir, “yemişəm”- deyir,
Balası doymamış yemir analar.

Bilmir ki, həyata gələndən bəri
Övladı Köçəri, özü köçəri,
Nə bildi, nə gördü udub içəri,
Yaşayır şərəfli ömür analar.

## ÖTƏN İLLƏR

Nə mən bildim, nə də dünya,
Bir ömür yaşadım guya,
Günlərimi saya-saya,
Çürütdüm ötən illəri.

Çox can atdım ora-bura,
Başqa dünya qura-qura,
Vaxtı dondura-dondura,
Əritdim ötən illəri.

Qışda yaydan, yayda qışdan
Verdim.., Getdi bəri başdan,
Ayağı yer tutmaışdan
Yeritdim ötən illəri.

Dastan oldum cümlə-cümlə,
Tənha qaldım taleyimlə,
Ağlatdım öz gileyimlə,
Kiritdim ötən illəri.

Köçəri, çox mənəm – dedim,
İnsan təzə, dünya qədim,
O, gördü, mən görəmmədim,
Kor etdim ötən illəri.

## YENƏ MƏN?

Kaş qayıdam o günlərə,
Yatam səhər-ertə yenə.
Anam gəlib, açıq qalan
Üst-başımı örtə yenə!

Enəm çaya, çıxam dağa
Tər başımdan yağa-yağa.
Qoşulam uşaq-muşağa,
Yanaqlarım pörtə yenə!

Hara gəldi-düşəm yola,
Moruq, əzgil yola-yola,
Əllərimə tikan dola,
Daş dizimi sürtə yenə.

Keçmişimlə qalam qoşa,
Qulaq asam qurda-quşa.
Qayıdam eniş-yoxuşa,
Sıldırıma, sərtə yenə!

Hər yerinə ayaq döyəm,
Nəğmə qoşam, şeir deyəm,
Köçəriyəm, boyun əyəm
Könül verən şərtə yenə!

## ƏN TƏZADLI OKTYABR



Afayət AFİQ

**Bu il son illərin hava baxımından ən soyuq, hərəkətlilik baxımından isə ən qaynar oktyabrını yaşadıq. Belə ki, bir çoxumuz özümüzdən asılı olmadan payızın arada yaddan çıxıb qaldığını, yayın estafeti bir başa qışa dövr etdiyini də düşündük. Oktyabr hirsi ilə, ədası ilə, soyuğunun fonundakı qızıl yarpaqları ilə bizə payızın yox olmadığını, sadəcə olaraq bəlkə incindiyi, qırıldığı üçün, bəlkə külümüzü göyə sovuran yaydan intiqam almaq üçün, ya da özünü qışın qarşısında dik göstərmək istədiyi üçün daha sərt gəldiyini xatırlatdı. Min bir azarın ağuşunda qıvrılan insanlar üçün ən son arzu ediləcək şey, soyuğun qapıları erkən taqqıldatmasıdır. Bunun nədənləri isə, hər kəsə aydın olduğu üçün sözün bu yerində dayanmadan keçirəm dəlisov oktyabrın bu ilki digər yönünə – hərəkətliliyinə və yaşadığımız ildə bu nöqteyi-nəzərdən canlı olmasına.**

Bu il ölkəmizin oktyabrının gözü nələr gördü, nələr. Yəqin ilk öncə vətəniminizin müqəddəratı üçün keçirilən parlament seçkilərini nəzərdə tutduğumu anladınız. Ayımız sözün əsl mənasında seçki həyəcanı ilə başlayıb, seçki həyəcanı ilə də bitməkdədir. Zira bu ölkənin insanları nə istədiklərini birdəfəlik izah edə bilmədilər, ya buna imkan olmadı, ya imkan verilmədi, ya da bəlkə həmin gün çox insan evdən şirin çay içmədən çıxmışdır. Hər nə isə, bunları dəyərləndirmək istək və iqtidarım xaricində olduğundan burada da çox ayaq saxlamaq istəmirəm.

Bunları deyəcəklərimə bir pərdə, bir daldalanacaq kimi yazıb hazırlayırdım. Gözəlim oktyabrın Gürcüstan üçün yaddaqalan məqamlarından biri Qurban Səidin azərbaycanlı bəy balası Əli ilə gürcü aznaurunun qızı Ninonun birinci dünya müharibəsi və inqilab fonunda cərəyan edən eşqini dilə gətirən məşhur əsəri əsasında çəkilən filmin nümayişi idi. Bu əsər haqqında ucundan-qulağından da olsa hər kəsin bir az eşitmiş olacağını düşünürəm. Gerçək kimliyi uzun illər aparılan araşdırmalardan sonra, hələ də mübahisəli qalan Qurban Səid müxtəlif mədəniyyətlərin, müxtəlif dinlərin, müxtəlif adətlərin daşıyıcısı olan iki gəncin sevgi hekayəsini ədəbiyyatın sinəsinə toxuyub. Toxumasının naxışları, ilmələri isə geniş üfüqlərə açılacaq qədər dəqiq və sıx olub. O qədər ki, əsər bu gün dünyanın 40-a qədər dilinə tərcümə edilib, bir neçə dəfə də bestseller adını qazanıb. 40 ölkədə “Əli və Nino” oxunsa da, əsər Gürcüstanın və Azərbaycanın doğması sayılır və biz əsərə daha çox sahib çıxırıq desək yalan olmaz.

Az əvvəl də dediyimiz kimi, bir neçə gün əvvəl paytaxtımızda böyük təntənə ilə nümayiş etdirildi. Bəli, filmin premyerasında gerçəkləşdirilən təntənənin yanında, mənim ifadə etdiyim təntənə xeyli sönük qalır. Oktyabr oktyabr olalı bu qədər həngamə görməmişdi. Deyəcəksiniz nə böyük iş olub ki, film nümayiş olunub. O olub ki, biz bir həftə ərzində qulağımızdan qut olduq, gözümüz qamaşdı. Hər yetən bu film haqqında danışdı, özünü-sözünü dillərdirdi. Afişanın önündə o ki, var şəkil çəkib, reklam etdi. Romandan xəbəri olmayanlar, ədəbiyyatdan, sənətdən uzaq olanlar gürcü-azərbaycanlı məhəbbəti söhbətini eşidib küyləşdilər kinoteatra... Xəbərlər, şəkillər, sosial şəbəkələrdə paylaşmalar boğazdan aşdı. Küyə gedən insanlar arasında Əlinin qohumları Ninonun qohumlarına nəzərən çoxluq təşkil edirdi. Bu gün, oğlu gürcü gəlin gətirsə təpiyin burnunda oynadacaq olanlar ideal məhəbbət çağırışçıları qiyafətinə bürünüb, nə qədər deyirsən gözümüzdən irin gətidilər.

**Mənim bu hallara sənət üçün sevinməm gərəkdir, lakin bəzi şeylərin saxta və sadəcə oyun, reklam xətrinə edildiyini görəndə insan dillənməyə bilmir. Yəni bir bölük insanın geyinib-kecinib, qır-qızıllanıb məhz görüntü üçün yollara düşməsi o qədər də ürəkaçan deyil. Bəzi insanlar rollarını yaxşı oynayıb sənətsevər kimi görünməyə çalışsalar da, bəzilərində bu ümumiyyətlə alınmır. Yəni, onlar saxtalıqlarını pərdələyəcək gücə də sahib deyillər. Bəli, şəhərin bütün küçələri, bütün kanallar, bütün divarlar Əli ilə Ninonun eşqini müjdələyirmiş kimi, afişalarla bəzədilmiş, şəkillərlə sayrışırdı. Ədəbiyyatın da, sənətin də, sevginin də əlehinə deyilik, dünyanın qanlı-qadalı dövründə bu zadlar nə qədər çox olarsa, bir o qədər yaxşıdır məntiqi məntiqimizə hər zaman yol yoldaşıdır, ancaq, onlara saxtalığın qarışması, əldəqayırma hisslərin bulaşması hər birimizi mütləq narahat etməli, mütləq vəsvəsəyə salmalıdır. O səbəbdən ki, bugünkü ən xırda saxtalıq belə, sabahımız üçün nəhəng təhlükədir...**

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

31 oktyabr 2016-cı il
№020 (34)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur

## TBİLİSİDƏ “EXPERİMENTORİUM” MARAQLI ELMLƏR MUZEYİ FƏALİYYƏTƏ BAŞLADI



Gürcüstan paytaxtında “Experimentorium” adlı maraqlı elmlər muzeyi fəaliyyətə başlayıb. Bu cür muzey London və Kuala-Lumpuredə də var. Yeni müəssisə muzey haqqında təsəvvürləri yüz səksən dərəcə dəyişməsi ilə maraq doğurur. Belə ki, muzeyin eksponatları ilə istənilən şəkildə davranmaq mümkündür. Eksponatlara əllə toxunmaq, hətta fırlatmaq, atmaq, sındırmaq və yığmaq da olar.

“Eksperimentorium”da fizikanın qanunlarını nümayiş etdirən 80-dək eksponat var. Təşkilatçılar muzeyin hamının xoşuna gələcəyini düşünürlər.

Qışqırığın gücünü ölçmək, mismarlar üzərində oturmaq, dostunu havaya qaldırmaq, əllə şimşəyi tutmaq, qum üzərində rəsm çəkmək və hətta təbil qurğusu arxasında özünü rok-ulduz da hesab etmək mümkündür. Bütün eksponatlar interaktiv olduğundan onlarla qarşılıqlı fəaliyyətdə olmaq tələb olunur. Hətta burada gülməyə və ucadan danışmağa da icazə verilir.

Muzey hər gün saat 10:00-dan 20:00-dək fasiləsiz işləyir.

## TBİLİSİ DÖVLƏT UNİVERSİTETİNDƏ ƏDƏBİYYAT VƏ ESTETİKA MÖVZUSUNDA SEMİNAR KEÇİRİLİB

İvane Cavaxişvili adına Tbilisi Dövlət universitetinin nəzdində fəaliyyət göstərən Yunus Emre Türk Mədəniyyət Mərkəzi tərəfindən vaxtaşırı silsilə ədəbiyyat seminarları keçirilir.

“Türk dili və ədəbiyyatı haqqında söhbətlər “ adlanan proqramın bu dəfəki qonağı və mühazirəçisi Hacettepe Universitetinin müəllimi, professor Mahir Kalfa olub.

Oktyabrın 28-də baş tutan seminarda Tbilisi Dövlət Universitetinin Türk dili və ədəbiyyatı bölümünün müxtəlif proqramlarının tələbələri, müəllimləri, eləcə də bir çox həvəskarlar iştirak ediblər. Mühazirə ədəbiyyat və estetika mövzusunda müzakirə ilə başa çatıb. Analoji seminar Mahir Kalfa tərəfindən Axalsixedə Samtsxe-Cavaxeti Universitetinin tələbələri üçün də keçirilib.




## DUBAYDA YOL POLİSİNİ ROBOTLAR ƏVƏZ EDƏCƏK



Dubayda hüquq-mühafizə orqanlarının start verdiyi layihə hamının marağına səbəb olub.

Layihəyə əsasən 2017-ci ildən başlayaraq yol polislərini robotlar əvəz edəcək. Son model texnologiya ilə təchiz olunan robot polislər hələlik mütəşəkkil cinayətkarların axtarışına çıxmayacaq. Robotlar şübhəli sürücülərin aşkarlanması və cərimələnməsi prosesini həyata keçirəcək. Robot polislər cəriməsi olan maşınları dərhal tanıdığından, sürücülərin cəzadan qaçma ehtimalı da azalır.

## OFİSİANTLARA BÖYÜK MİBLƏĞDƏ BƏXŞİŞ VERƏN MƏŞHURLAR

Ulduzların bahalı yaşam tərzi keçirmələri heç kəsə sirr deyil.

Onların gecə şənlikləri üçün böyük pullar xərcləməsi də cəmiyyətdə normal qarşılanır.

Şənliklərin xərclərini ödəmək məqamı çatanda isə ulduzlar özlərini heç də eyni cür ifadə etmirlər. Bəziləri hesabdan əlavə ofisianta da “hörmət edir”, bəziləri isə heç “çox sağ ol” da demirlər.

Əcnəbilər arasında ofisianta ən çox pul verən şəxs repçi Cey Zi olub. O, 250 min dollarlıq hesabı ödədikdən sonra ofisianta da 50 min dollar bəxşiş verib.

Peris Hilton 47 min, Conni Depp 4 min, Bred Pitt isə ofisianta 2 min dollar hədiyyə verib.



## İZMİR DÖVLƏT SİMFONİK ORKESTRİ TBİLİSİNİN QONAĞI OLUB



Gürcüstanın dövlət müstəqilliyinin və Türkiyə-Gürcüstan diplomatik əlaqələrinin bərpasının 25-ci ildönümü ilə bağlı, ötən günlərdə İzmir Dövlət Simfonik orkestrı Tbilisidə qonaq olub. Konsert proqramları çərçivəsində Aleksandre Toradze və Vaxtanq Maçavarianinin dirijorluğu ilə İzmir simfonik orkestrnin ifasında dinləyicilər müxtəlif əsərləri dinləyə biliblər.

Üçgünlük konsert proqramları oktyabrın 20-də başlayıb və Tbilisinin əsas konsert zalı olan filormoniyada başa çatıb.

Gürcüstan Prezidenti Georgi Marqvelaşvili və ölkənin birinci xanımı Maka Çuçua Vano Saracişvili adına Tbilisi Dövlət Konservatoriyasında Gürcüstanın dövlət müstəqilliyinin və Türkiyə-Gürcüstan diplomatik əlaqələrinin bərpasının 25-ci ildönümünə həsr edilmiş konsertdə iştirak edib. Konsertdə Türkiyənin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zeki Levent Gümrükcü, həmçinin Gürcüstan prezidentinin müşavirləri və prezident administrasiyasının nümayəndələri də iştirak ediblər.

## NORVEÇDƏ SƏNƏTKARLIQ BACARIĞI OLAN ADAMLARA MAAŞ VƏ OTURMA İZNİ VERİLİR



Norveçdə öz sənətini sərbəst şəkildə icra etmək istəyənlərə təqribən 2000 lari maaş və oturma izini kimi nadir bir sürpriz hazırlanıb.

Həm gördüyü işdən zövq almaq, həm də bu işin müqabilində 2000 lariyədək əmək haqqı almaq istəyənlər üçün Norveç qapılarını taybatay açır. Norveçin sənət adamlarına vermək istədikləri bunlarla bitmir. Burada yerləşən sənətsevərlər üçün fərdi ofis və 1000 lariyə yaxın səyahət büdcəsi də vəd olunur.

Norveçdə bir körfəz üzərində inşa olunmuş Nordisk Kunstnarsenter Dale adlı mərkəz öz sənətlərini Norveçdə qalıb icra etmək müqabilində sənət adamlarına maddi yardım və digər köməkliklər etməyi öz üzərinə götürür. Bir məsələni də vurğulayaq ki, sənət adamının hansı ölkənin vətəndaşı olması bir önəm daşımır. Yetər ki, sənətkar özünü qəbul etdirə bilsin.

## İQLİMŞÜNAS ALİM 30 İLLİK QIŞIN GƏLMƏSİ BARƏDƏ DƏHŞƏTLİ PROQNOZ VERİR



NASA-nın keçmiş əməkdaşı iqlimşünas alim Con L. Keysi sensasion proqnozlarla çıxış edib. O, yeni çapdan çıxmış kitabında yer kürəsinə 30 il davam edəcək sərt qış fəslinin yaxınlaşdığını iddia edib.

Keysinin tezislərinə görə önümüzdəki 30 il ərzində qlobal soyuma baş verəcək. O, bunu günəşin fəallığının azalmaları ilə izah edir.

Maraqlıdır ki, onun bu tezislərini bir çox həmkarları da dəstəkləyiblər. Alimlərin fikirlərinə görə, önümüzdə bizi “solar minimum” deyilən günəşdəki alovlanma və partlamaların azalacağı bir dövr gözləyir. Alimlər hesab edirlər ki, getdikcə günəşin fəallığı azalacaq və “solar qış yuxusu” dövrünə girəcək.

Günəşin 30 il davam edəcəyi təxmin edilən qış yuxusunda okean və atmosferin temperaturu xeyli aşağı düşəcək. Nəticədə böyük vulkanik partlamalar və zəlzələlər olacağı ehtimal edilir.

Keysi iddia edir ki, son aylarda ən böyük qarşıdurmalarının yaşandığı yerlərdən biri olan Ukraynadakı böhranın səbəbi də bu iqlim dəyişikliyinə qarşı Rusiyanın tədbirlər planı ola bilər. Keysinin təxminlərinə görə, Rusiyanın Ukraynadakı əsl marağı ölkənin əhəmiyyətli bir buğda qaynağı olmasıdır. Bu nəzəriyyəyə görə, Rusiya “solar qış yuxusu” zamanı qida ehtiyacını qarşılaya bilmək üçün Ukraynanın qaynaqlarından istifadə etməyi planlaşdırır.

**Təsisçi:**
*“Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı”*

***Redaktor:***
**Afiq Muxtaroğlu**
***Yayım Direktoru:***
**Hacı Bəkiroğlu**

*ÜNVAN:* Qardabani şəh. Kolxoz küç, 4
*TEL:* (+995) 595 92 25 70
599 54 12 92
*EMAİL:* yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.